# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 25

Bakı şəhəri "26" fevral 2018 il

**"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.2-ci maddəsinə uyğun olaraq korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların verilməsi üçün müvafiq vəzifəli şəxsin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2016-cı il 25 noyabr tarixli 44 nömrəli Əmrində dəyişiklik edilməsi barədə**

Energetika Nazirliyinin 2018-ci il 10 yanvar tarixli 3 nömrəli əmri ilə Nazirliyin aparatının yeni strukturunun və ştat cədvəlinin təsdiq edilməsi ilə əlaqədar "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.2-ci maddəsini və Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**Əmr edirəm:**

1. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.2-ci maddəsinə uyğun olaraq korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların verilməsi üçün müvafiq vəzifəli şəxsin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2016-cı il 25 noyabr tarixli 44 nömrəli Əmrində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə "Hüquqi münasibətlər şöbəsinin müdiri İbrahim Ağayev" sözləri "Daxili nəzarət şöbəsinin İnzibati-təşkilati nəzarət sektorunun müdiri Elxan Kərimov" sözləri ilə əvəz edilsin;

1.2. 2-ci hissədə "Hüquqi münasibətlər şöbəsinin müdiri İbrahim Ağayevə" sözləri "Daxili nəzarət şöbəsinin İnzibati-təşkilati nəzarət sektorunun müdiri Elxan Kərimova" sözləri ilə əvəz edilsin.

2. Ümumi şöbə bu əmrin surətini nazirliyin aparatının struktur bölmələrinə çatdırılmasını təmin etsin.

3. İctimaiyyətlə əlaqələr və informasiya texnologiyaları şöbəsi bu əmrin nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**